Iyun, 2014

# PwC Azerbaijan Times

## Xüsusi buraxılış № 2: FATCA xəbərləri



### Buraxılışın əsas xəbəri:

- **Milli Məclis yerli qanunvericiliyi FATCA ilə uyğunlaşdırır**


Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketing və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az



© 2014 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.


### *Qısa məlumat*

Sizi PwC Azerbaijan Times-ın may nəşrində məlumatlandırdığımız kimi Azərbaycan Amerika Birləşmiş Ştatları ilə FATCA məqsədləri ilə Hökumətlərarası Sazişə faktiki olaraq qoşulmağa razılıq verib və 16 may 2014-cü ildə Model 1 Hökumətlərarası Saziş olan ölkələrin siyahısına daxil olub.

Azərbaycan Respublikasının Parlamenti (Milli Məclis) vergi ödəyicilərinin (xüsusilə də xarici maliyyə qurumlarının) FATCA-nın məlumat açıqlama tələblərinə cavab vermələri üçün artıq yerli qanunları FATCA ilə uyğunlaşdırma prosesinə başlayıb.

20 iyun 2014-cü ildə Milli Məclis Vergi Məcəlləsinə (beynəlxalq müqavilələrə uyğun olaraq məlumatların verilməsi tələbləri və verilməməsi halda sanksiyaların tətbiqinə dair yeni müddəalar), Sığorta Fəaliyyəti haqda Qanuna (Sığorta Sirri barədə müddəaya), eləcə də Banklar haqqında qanuna (Bank sirri haqda müddəaya) bir sıra əlavə və dəyişiklikləri müzakirə etdi.

PwC Azerbaijan Sizi yuxarıda qeyd olunan dəyişikliklərin və əlavələrin məzmunu barədə bu dəyişiklik və əlavələr qüvvəyə mindikdən sonra daha ətraflı məlumatlandıracaq.